

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: **Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 179 (23.090)

21 sentyabr 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçiriləcək təntənəli iclasda iştirak etmək üçün ölkəmizə səfərə gələn Cibuti Milli Assambleyasının sədri Məhəmməd Əli Humədi, Oman Sultanlığı Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirini, Küveyt Millət Məclisinin sədri Mərzuq Əli əl-Ğanimi, Pakistan Senatının sədri Məhəmməd Sadiq Səncarini, Bolqarıstan Milli Assambleyasının sədri xanım Tsveta Karayançevanı, Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Cumabekovu, Misir Nümayəndələr Palatası sədrinin birinci müavini Mahmud Əhməd Şərifi və ATƏT Parlament Assambleyasının prezidenti George Tsereteli qəbul edib.

Dost ölkələrin nümayəndələrinin bu tədbirdə təmsil olunmasını ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin nümayişi kimi dəyərləndirən Prezident İlham Əliyev onların təmsil etdikləri ölkələrə səfərlərini məmnunluqla xatırlayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## Naxçıvanda Aşura mərasimləri keçirilmişdir





Hər il Məhərrəm ayı və onun Aşura günü muxtar respublikada İslamın dəyərlərinə uyğun qeyd olunur.

Məhərrəm ayı tarix boyu bütün səmavi dinlər tərəfindən sülh və əmin-amanlıq ayı kimi qəbul olunmuşdur.

İslamdan sonra Aşura günü Kərbəla hadisəsi ilə bağlı olmuşdur. İmam Hüseyn və tərəfdarları həmin gün haqq uğrunda şəhadətə qovuşmuşlar. Bu günün mahiyyətində iman sevgisi, savab əməllər və əqidə saflığı kimi ali dəyərlər dayanır. Hər il muxtar respublikada keçirilən Aşura mərasimlərində insanlar bu mənəvi dəyərlər ətrafında həmrəy olur, məscidlərdə qanvermə aksiyaları keçirilir, ehtiyacı olanlara həyat verilir.

Sentyabrın 20-də Naxçıvan şəhərindəki Cümə məscidində Aşura mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Aşura mərasimində iştirak etmişdir.

Mərasimdə Qurani-Kərimdən ayələr oxunmuş, dualar edilmiş, ehsan verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*İqtisadi inkişafın əsas şərti kimi makroiqtisadi sabitliyin qorunması və bu məqsədlə bank sektoru tərəfindən davamlı olaraq həyata keçirilən tədbirlər həmişə diqqəti cəlb edir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında real sektora kredit qoyuluşunun artması və sahibkarların maliyyə resurslarına çıxış imkanlarının yaxşılaşdırılması nəticəsində bank sektorunun maliyyə dayanıqlılığı ötən dövr ərzində də uğurla təmin olunub. Sərfəli faiz dərəcələri ilə verilən kreditlər ümumi iqtisadi aktivliyin artırılmasında, sahibkarlığın inkişafında, məşğulluğun təmin olunmasında mühüm rol oynayır.*

## Cari ilin 8 ayında bank sektorunun dayanıqlı inkişafı təmin olunub

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata əsasən muxtar respublikada fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 sentyabr 2018-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşunun həcmi 106 milyon 93 min manata çatıb, burada qısamüddətli kredit qoyuluşunun həcmi 2 milyon 772 min manata, uzunmüddətli kredit qoyuluşu isə 103 milyon 321 min manata yaxın olub.

Aparılan təhlillər göstərir ki, cari ilin yanvar-avqust aylarının nəticələri, ümumilikdə, muxtar respublikada fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatları üçün uğurlu olub. Belə ki, banklar qarşısında qoyulmuş ən mühüm vəzifələrdən biri olan iqtisadiyyata kredit qoyuluşunda müsbət dinamika qorunub saxlanılıb. Ötən 8 ay ərzində Naxçıvan Muxtar Respublikasında verilmiş kreditin ümumi məbləği 35 milyon 419 min manata çatıb ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə, təqribən, 1,7 dəfə çoxdur. Verilmiş kreditlərin 5 milyon 172 min manatı sənaye, 4 milyon 53 min manatı kənd təsərrüfatı, 670 min manatı tikinti, 20 milyon 447 min manatı kommunal və istehlak, 2 milyon 913 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka, 1 milyon 628 min manatı topdan və pərakəndə ticarət, 521 min manatı nəqliyyat, anbar təsərrüfatı və rabitə, 15 min manatı isə balıqyetişdirmə üzrə kreditlərin verilməsinə və digər sahələrə yönəldilib. Kreditlərin dinamikasına gəldikdə isə ötən ilin müvafiq dövrü ilə müqayisədə verilmiş kreditlərin həcmində tikinti sahəsi üzrə, təxminən, 9,6, arıçılıq üzrə 9, heyvandarlıq sahəsi üzrə, təqribən, 3,5, kənd təsərrüfatı üzrə, ümumilikdə, təxminən, 2,9, kartofçuluq üzrə 1,6, bostan və tərəvəz sahələri üzrə isə 1,4 dəfə artım olub.

Bu dövrdəki nəticələrə görə muxtar respublika iqtisadiyyatına kredit qoyuluşunu həyata keçirən kredit təşkilatları arasında isə 87,1 faizlə özəl bankların üstünlük təşkil etdiyini görmək olar. Sonrakı yerləri 10,5 faizlə dövlət bankları, 2,4 faizlə bank olmayan kredit təşkilatları tutmaqdadır.

Təhlil olunan dövrdə bankların fəaliyyətinin digər bir mühüm istiqaməti olan əmanətlərin cəlb olunmasında da xeyli irəliləyiş olduğu görünməkdədir. Belə ki, 1 sentyabr 2018-ci il tarixə muxtar respublikada fəaliyyət göstərən banklarda mövcud olan fiziki şəxslərin əmanətlərinin həcmi 6 milyon 744 min manat, o cümlədən milli valyuta ilə 5 milyon 249,5 min, xarici valyuta ilə isə 1 milyon 494,4 min manat təşkil edib. Banklara qoyulan əmanətlərin həcminin ötən ilin müvafiq dövrü ilə müqayisədə milli valyuta ilə, təqribən, 1,24 dəfə artması, xarici valyuta ilə cəlb edilən əmanətlərin həcminin isə 1,7 dəfə azalması bank-maliyyə sistemində yaranmış sabitlikdən qaynaqlanmaqla ümumi müsbət tendensiyadan xəbər verir.

Yekun olaraq onu qeyd etmək mümkündür ki, ümumilikdə, muxtar respublikanın bank sektorunda dayanıqlı inkişaf təmin olunub. Bank qurumlarının real sektoru dəstəkləmək istiqamətində verilmiş tapşırıqlara əməl etməsi və kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi qarşıdakı dövrdə bu göstəricilərin daha da yaxşılaşdırılmasını proqnoz etməyə imkan verir.

**✍ Əli CABBAROV**

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində büdcə təşkilatlarında çalışan maliyyə və mühasibatlıq işçilərinin iştirakı ilə“Büdcə təşkilatlarında praktik mühasibatlıq” mövzusunda təşkil olunan təlimlər davam edir.***

## Təkmilləşdirici təlimlər davam edir



Təlimlərə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Dövlət Miqrasiya Xidmətinin, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi və Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət idarələrinin, Mülki Müdafiə Alayının, ümumilikdə, 17 nəfər maliyyə və mühasibatlıq əməkdaşı cəlb olunub.

Kurs gündəliyə uyğun olaraq muxtar respublikanın Maliyyə və Vergilər nazirliklərinin ekspertlərinin təqdimatları üzrə davam etdirilir. Təlimlərdə müəssisələrdə Milli Mühasibat Uçotu Standartlarına əsasən hüquq-mühafizə orqanlarında maliyyə-mühasibat işinin aparılması, xəzinə əməliyyatlarının təşkili və uçot, vergi uçotunun təşkili, hərbi hissələrdə və hüquq-mühafizə orqanlarında maliyyə hesabatlarının hazırlanması ilə bağlı mövzular üzrə məlumatlar əhatəli şəkildə iştirakçıların diqqətinə çatdırılır.

Təlimlərdə praktik məsələ və testlərin həllinə yer ayrılır, təlimçilər ekspertlər tərəfindən müşahidə edilir ki, bu da, öz növbəsində, təlimin keyfiyyətinin artırılmasına müsbət təsir göstərir. Bundan əlavə, iştirakçılara tədris prosesində və öz günlük işlərində faydalı ola biləcək təlim materialları təqdim olunur. Burada tədris edilən slayd materialları, müvafiq sahə üzrə normativ-hüquqi aktlar, sənəd formaları, təlimatlar, qaydalar və misallar öz əksini tapır. Təlimlər praktik iş, suallara cavab, testlərin işlənməsi və sorğu-anketlərin doldurulması ilə zənginləşdirilir.

Qeyd edək ki, təlimin yekununda tədris olunan mövzu ilə bağlı qiymətləndirmə mərhələsindən sonra iştirakçılara Maliyyə Tədris Mərkəzinin sertifikatları təqdim ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## "Aqrotexservis" Səhmdar Cəmiyyətinin fəaliyyəti razılıq doğurur

*Aqil Məmmədov muxtar respublikada sahibkarlıq fəaliyyəti ilə məşğul olan ilklərdən biridir. Sovet dönəmində Moskva Ümumittifaq Yeyinti Sənayesi İnstitutunu Mühəndis-mexanik ixtisası üzrə bitirən Aqil Məmmədov müxtəlif kənd təsərrüfatı sahələrində çalışıb. Çalışdığı işlərdə işgüzarlıq göstərib, yenilikçi kimi tanınıb, məsuliyyəti ilə diqqəti cəlb edib. 2002-ci ildən Şərur "Aqrotexservis" Səhmdar Cəmiyyətinin rəhbəri kimi fəaliyyətini davam etdirir. Ötən bu müddət ərzində cəmiyyət rayonda kənd təsərrüfatının inkişafına öz töhfəsini verib, şərurlu torpaq mülkiyyətçilərinin yaxın köməkçisinə çevrilib. 2012-ci ildə cəmiyyətə rəhbərlik edən Aqil Məmmədov səmərəli fəaliyyətinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının Əməkdar kənd təsərrüfatı işçisi" fəxri adına layiq görülüb.*

– Hər dövrün, hər ictimai quruluşun özünəməxsus tələbləri var. Həyatda uğur qazanmaq, üzvü olduğun cəmiyyətə, xalqına xeyir vermək, bildiklərini istehsalata tətbiq etməklə bu tələbləri qarşılamaq olar. Müstəqillik qazandığımız illərdə mən bunu yeni yaradılan, inkişafına hərtərəfli dövlət dəstəyi göstərilən sahibkarların fəaliyyətində görmüşəm. Görmüşəm ki, məhz bu amilləri əsas götürənlər qarşılaşdıqları çətinliklərdən qorxmur, geri çəkilmir, mübarizlik göstərir və son nəticədə, istəklərinə nail olurlar. Bundan isə həm özləri, həm də cəmiyyət qazanır.

Cəmiyyətimiz fəaliyyətə başlayarkən biz də bəzi çətinliklərlə qarşılaşdıq. Ancaq muxtar respublikada bu sahəyə güclü dəstək olduğunu görüb tədricən həmin çətinlikləri aradan qaldırdıq. Müasir texnikaların alınmasına ciddi önəm verdik. Çünki indiki dövrdə bir-iki, özü də köhnə texnika ilə tələbatı ödəmək mümkün deyil. Bu işdə də dövlət bizə dəstək oldu.

"Aqrotexservis" Səhmdar Cəmiyyətinin fəaliyyəti bir sıra sahələri əhatə edir. Başlıca olaraq isə cəmiyyət ona məxsus texnikalarla rayonda şum qaldırılması, taxıl əkilməsi və biçilməsi, kip vurulması və digər kənd təsərrüfatı işləri ilə məşğuldur. Cəmiyyətdə 15 nəfər özünə daimi iş yeri tapıb. Mövsüm ərzində onların sayı artır.

Sahibkarlıq subyekti Şərurun və qonşu Sədərək, Kəngərli rayonlarının torpaq mülkiyyətçilərinə 4 şum traktoru, 3 kombayn, 2 otbiçən, kipvuran və digər kənd təsərrüfatı texnikası və aqreqatları ilə xidmət göstərir.



Cari ilin taxıl tədarükü mövsümündə cəmiyyət torpaq mülkiyyətçilərinin 180 hektar taxıl zəmisinin məhsulunu biçib. 30 hektar sahədə yazda, bir o qədər də bu mövsümdə şum qaldırılmasında iştirak edib.

Cəmiyyət heyvandarlıqla məşğul olanlara da köməyini əsirgəmir. Belə ki, heyvandarlıqda məsul dövrlərdən biri olan qış üçün yem tədarükündə otlaqların biçilməsində, kip vurulmasında yaxından iştirak edir.

Qeyd edək ki, cəmiyyətin özünəməxsus 52 hektar torpaq sahəsi var, əlavə olaraq hər il 50 hektar sahəni icarəyə götürür. Həmin sahə bu gün rayonun ən məhsuldar torpaq sahəsinə çevrilib. Bir vaxtlar daşçınqılla dolu olan, su qaldırılması xeyli zəhmət tələb edən sahədə abadlıq işləri aparılıb, ərazinin su təminatı qaydaya salınıb, torpağı münbitləşdirmək üçün tədbirlər görülüb. Çəkilən zəhmət isə hədər getməyib. Cari ildə sahibkar həmin ərazidə 25 hektar taxıl əkini sahəsindən 100 ton (40 sentner) məhsul götürüb. Digər əkin sahələrində də uğurlu nəticələrə nail olunub. 12 hektar kartof əkini sahəsində məhsuldarlıq 30 sentnerə çatdırılıb, 8 hektar sahədən soğan tədarük edilib, 4 hektar tərəvəz əkini sahəsində məhsul hələ boldur.

Cəmiyyət muxtar respublikada inkişafına böyük önəm verilən meyvəçiliklə də məşğul olur. Hazırda 1 hektar tingçilik olmaqla, 8 hektar sahə bu məqsəd üçün ayrılıb. Bağlarda yerli meyvə sortları yetişdirilməsinə üstünlük verilir.

Müəssisədə olarkən onu da öyrəndik ki, cəmiyyətə məxsus torpaq sahəsinin 30 hektarında payızlıq taxıl əkini üçün şum qaldırılıb, 2 hektar sahədə soğan əkilib. Digər təsərrüfat işlərinin həyata keçirilməsinə ciddi hazırlıq gedir.

Şərurlular müəssisənin yerləşdiyi ünvanı həm də dəyirman kimi tanıyırlar. Axı burada cəmiyyətin nəzdində olan "Dostluq" un dəyirmanı da fəaliyyət göstərir. Türkiyədən alınmış avadanlıqların quraşdırıldığı dəyirmanda gündəlik olaraq 4-5 ton taxıl üyüdülür.

Mövsüm başlayandan dəyirmanda 250 ton taxıl üyüdülərək sahiblərinə verilib. Rayonun Yengicə kəndində fəaliyyət göstərən lavaş sexinin rəhbəri Cabbar Tağıyevlə elə dəyirmanda görüşüb həmsöhbət olduq. O bildirdi ki, bir neçə ildir, yetişdirdiyi taxılı üyütmək üçün bu dəyirmana gətirir. Çünki burada xidmət yüksək səviyyədə qurulub, görülən işin keyfiyyətinə söz ola bilməz. Xidmət haqqı da müştərilərin ürəyincədir.

Burada görüşdüyümüz digər torpaq mülkiyyətçiləri də həm cəmiyyətin, həm də un dəyirmanının fəaliyyətindən razılıqla danışdılar. Çərçiboğan kənd sakini Rauf Məmmədov dedi: O vaxt torpağın əsl sahibi olursan ki, ondan səmərəli istifadə edirsən. Bunun üçün isə torpağın şumlanmasından başlayaraq məhsul yığımına kimi nəzərdə tutulan aqrotexniki tədbirləri vaxtlı-vaxtında həyata keçirməlisən. Bu gün şərurlular həmin tədbirlərin görülməsində əvvəlki illərdən fərqli olaraq çətinliklərlə üzləşmirlər. Onlara bu işlərdə "Aqrotexservis" Səhmdar Cəmiyyəti də yaxından kömək edir.

...İlin qayğıları artan bu mövsümdə cəmiyyət öz xidmətini yüksək səviyyədə göstərmək üçün imkanlarından səmərəli istifadə etməyə çalışır. Bu da təbiidir. Torpaq mülkiyyətçilərindən kimlərsə şum qaldırılmasını başa çatdırmağa, kimlərsə taxıl əkinini vaxtında yekunlaşdırmağa, bəziləri yağışlar başlamamış sahəsindəki otu biçdirməyə, kip vurmağa tələsir. Ancaq onlar arxayındırlar ki, hər bir təsərrüfat işini vaxtında başa çatdıra biləcəklər. Bu işlərdə bəhs etdiyimiz cəmiyyət onların xidmətindədir.

**Muxtar MƏMMƏDOV**



## Şərur rayonunda 900 hektar sahədə qarğıdalı yetişdirilib

Muxtar respublikanın hərtərəfli inkişafında xüsusi payı olan Şərur rayonu bu gün özünün inkişaf dövrünü yaşayır. Əhalisinin sayına görə ən böyük bölgələrimizdən olan bu rayonda kənd təsərrüfatının müxtəlif sahələri də inkişaf edir, göstərilən dövlət dəstəyi torpaq mülkiyyətçilərinin əkin sahələrini genişləndirmələrinə, məhsuldarlığı artırmalarına imkan verib. Məhz bunun nəticəsidir ki, rayonun torpaq mülkiyyətçiləri cari ildə 900 hektara yaxın sahədə qarğıdalı əkini aparıblar. Artıq bir neçə gündür ki, sahələrdə biçin keçirilir.

Qısa müddətdə 40 hektarda biçin aparılıb və hər hektardan 98 sentner məhsul götürülüb.

Rayonun Axaməd, Yengicə, Zeyvə, Düdəngə, Oğlanqala, Kürçülü və digər kəndlərində daha çox qarğıdalı əkilib. Əkinlərə düzgün aqrotexniki qulluq göstərildiyindən sahələrdə bol məhsul yetişdirilib.

Naxçıvan Muxtar Respublikası "Bərəkət Buğda Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən qarğıdalının hər kiloqramı 30 qəpikdən qəbul olunur ki, bu da torpaq mülkiyyətçilərini qane edir.

Onu da deyək ki, muxtar respublikada bu il 1200 hektara yaxın sahədə qarğıdalı yetişdirilib.

**Xəbərlər şöbəsi**

## Tanrının möcüzəvi bəxşişi və ya zəhmət çəkən bal yeyər...

*Yer üzündəki ən işgüzar canlılardan olan arılar Tanrının təbiətə bəxş etdiyi möcüzələrdən biridir. Bir arı ailəsində hər arının gündəlik özünəməxsus işi var. Gözətçi, kəşfiyyatçı, döyüşçü, ana, hətta hava haqqında məlumat verən arılar...*

Bu ailədə ən mühüm rolu olanlardan biri ana arıdır ki, o, gün ərzində pətəklərə öz çəkisindən dəfələrlə çox sürfə qoyur və həmin sürfələrdən beçə arılar əmələ gəlir, – deyən Ordubad rayonunun Bist kənd sakini, 62 yaşlı arıçı Tahir Tahirov uzun illərdir ki, bu sahə ilə məşğuldur. Həmişə bağçamızda arı pətəkləri görmüşəm. Keyfiyyətli və bol məhsulun ərsəyə gəlməsi üçün atamla birlikdə yayı Göygöl yaylağında, qışı aranda bu pətəklərin qayğısını az çəkməmişik. Atam elə böyük həvəslə arılara nəzarət edər, onlara qulluq göstərərdi ki, sanki öz övladlarıymış kimi... Gördüyüm həmin mənzərə mənim lap kiçik yaşlarımdan bu peşəyə marağımı artırdı. Sıra ilə düzdüyü yeşikləri göstərən müsahibimiz deyir ki, bir zamanlar atamın evinin ruzi-bərəkət ağacı olan bu pətəklər ondan mənə qalan ən dəyərli mirasdır:

– Atam gözəl müəllim olmaqla yanaşı, həm də arıçılıq sahəsində əsl mütəxəssisdir. Bistdə arıçılıq qədim təsərrüfat sahələrindən biri olduğundan, demək olar ki, hər kəsin bağçasında, heç olmasa, qışa özü üçün 5-10 kiloqram bal tədarük etsin deyə, 3-5 arı pətəyi olardı. Bu gün isə kənd adamları bala yalnız qış azuqəsi deyil, həm də çörək ağacı kimi baxır, dolanışıqlarını bu yolla təmin edirlər. Yadımdadır, hələ mən uşaqkən arıçılıqda təcrübəsi az olanlar atamdan bu sahə ilə bağlı məsləhətlər alar, onu saxlamağın sirlərini öyrənərdilər. Belə söhbətlərin çox şahidi olmuşam. Həmin məsləhətlər məni bu peşədə atam qədər də olmasa, yaxşı arıçı olmağa sövq edib.

İndi atamın 94 yaşı var. Şükür Allaha, səhhəti ilə bağlı heç bir şikayəti yoxdur. O, həmişə deyir ki, məni belə gümrah saxlayan hər səhər acqarına yediyim bir qaşıq baldır. Bu nemət min bir dərdin dərmanıdır. Biz tərəflərdə kiminsə bir yeri çapılsa, yaralansa, yansa tez üstünə bal qoyarlar. Sizi inandırım, bu məlhəm bir çox dərmandan təsirlidir.





Hələ bu harasıdır? Bal haqqında bilmədiyimiz nə qədər sirlər varmış... Baxın, Tahir Tahirov bal haqqında daha nələr danışdı? – Bu möcüzəvi canlıların ərsəyə gətirdiyi arı südü, çiçək tozu, mum, barəmum məhsulları ilə yanaşı, əsas məhsul sayılan bal toplandığı çiçəklərin rənginə uyğun olaraq qonura çalan, şəffaf, ətirli, şirinliyi boğaz yandıran, süzüləndə tük qədər nazilsə də, qırılmayan, məişətdə hər kəsin ehtiyac duyduğu nemətdir. Əgər nəzərə alsaq ki, 1 kiloqram bal üçün arılar 20 milyona qədər çiçəyə qonub şirə toplayır, onda balın tərkibinin 4 min ildir, tam öyrənilib başa çatmadığının bir daha öz təsdiqini tapdığını görərik. Təsərrüfatçı deyir ki, arılar yalnız çiçəklərdən nektar çəkmir, yarpaqlardan, tumurcuqlardan, meyvə səthinin örtüyündən, faydalı olan növbənöv bitkilərin yerüstü hissələrindən, müxtəlif palçıqlardan, şirin, cod və mineral sulardan belə, pətəklərinə təbii maddələr daşıyırlar. Burada isə müxtəlif işçi qrup arılar ağzında su daşıyaraq bu maddələri həll edir, üsküklərdə balyığan arılara ötürürlər. Mürəkkəb tərkibli bu maddələr ana arının gündəlik qidalandırdığı üç minədək yeni sürfələrə, şan çəkilişinə, üskük hazırlığına, arı südünə, çiçək tozuna, muma, bərəmuma sərf edilir. Hazır olan balın üskükləri dolduqca, bir-bir "möhürlənir" və onun səthindəki təbəqəyə balın "qaymağı" deyilir. Balsüzmə əməliyyatında xüsusi alət olan ərsinlə həmin qaymaqlar sivrilib bir qaba yığılır ki, balsüzən maşından ağzı açılmış üsküklərdən balın hamısı süzülə bilsin. Balın qaymağı süzmə baldan qiymət baxımından daha baha olur. Çünki 100 kiloqram süzmə baldan vur-tut 1-2 kiloqram bal qaymağı çıxır. Bir çox xəstəliyin müalicəsində balın qaymağı qədər dünyada ikinci bir dərman yoxdur. Çünki arı min bir zəhmətlə hasilə gətirdiyi balı üsküklərə yığandan sonra ona heç bir virus, infeksiya yol tapa bilməz.

Qocaman arıçının balın tarixi ilə bağlı verdiyi məlumat da maraqlıdır: Müqəddəs kitabımız olan "Qurani-Kərim"in "Ən-Nəhl" surəsinin 68-69-cu ayələrində deyilir: "Rəbbin bal arısına vəhy etdi: Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda (evlərin damında, üzümlüklərdə) özünə evlər tik (pətəklər sal); Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat (asanlıqla) get! (Və ya Rəbbinin yollarını itaətlə tut!) (O arıların) qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli (ağ, sarı, qırmızı) bal çıxar..." İlahi tərəfindən insanlar üçün şəfa mənbəyi olaraq yaradılmış balda, həqiqətən də, elə müalicəvi güc var ki, bunun insan sağlamlığına müsbət təsirləri dəfələrlə sübuta yetirilib. Bu nemət təkcə şirin dadı olan adi maye və ya vaxtaşırı ağzımızı şirin etmək üçün bir-iki qaşıq daddığımız bir qida deyil. Arıçının dediyi kimi, o həm də bir çox müxtəlif xəstəliklərin müalicə açarıdır. Aparılan çoxsaylı təcrübələr bir daha sübut edir ki, balın sağalmaz yaraların, ümumi xəstəliklərin müalicəsindəki rolu danılmazdır. Bal xərçəng, ürək çatışmazlıqları, xolesterin, soyuqdəymə, dəri infeksiyaları kimi xəstəlikləri müalicə edən təbii dərmandır. Şirin olmasına baxmayaraq, miqdarını düzgün tənzimlədikdə şəkərli diabet xəstələri üçün də xeyirlidir. Alimlərin araşdırmalarına görə, bal infarktın qarşısını alır, ondan mütəmadi olaraq istifadə etdikdə ürək döyüntüləri normallaşır.

Tahir Tahirov deyir ki, əvvəllər arıçılıqda istifadə edilən dərmanları qonşu ölkələrdən çətinliklə əldə edərdik, lakin bu gün muxtar respublikada biz arıçılar üçün yaradılan şərait keyfiyyətli məhsul istehsalı ilə yanaşı, arı ailələrinin sayının artmasına da səbəb olub.

Arıçı onu da vurğulayır ki, son dövrlərdə Naxçıvan şəhərindəki "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində təşkil olunan "Arıçılıq məhsulları – bal" festivalında da iştirak edirəm. Yaradılan şərait mənim kimi bir çox arıçıya bazara rahat çıxış imkanı qazandırıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" Tahir Tahirovun timsalında bu sahə ilə məşğul olan sahibkarlara göstərilən dövlət qayğısının bariz nümunəsidir. Proqramdan irəli gələn vəzifələrin vaxtında yerinə yetirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsini isə muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfə kimi dəyərləndirmək olar.

Arıçılıq təsərrüfatlarında elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqi üçün sahibkarlar arasında maarifləndirmə işlərinin aparılması, bal və digər arıçılıq məhsullarının emalı və qablaşdırılması müəssisələrinin yaradılması, şan vərəqi hazırlayan və arıçılıq avadanlıqları istehsal edən yeni müəssisələrin fəaliyyətə başlamasının dəstəklənməsi, tələbatdan artıq istehsal edilən arıçılıq məhsullarının ixracının stimullaşdırılması, arı xəstəliklərinin qarşısının alınması üçün zoobaytar tədbirlərin genişləndirilməsi, heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanaların yaradılması arıçılığın inkişafına nail olunmasında başlıca vəzifələrdir.

**Gülcamal TAHİROVA**

*Tarixi abidələr milli sərvətimizdir*

## Minillik məişət mədəniyyətimizin göstəricisi – *buzxanalar*



*Naxçıvan şəhərindəki Buzxana abidəsi*

***Naxçıvan ölkəmizin tarixi abidələrlə zəngin diyarıdır. Xalqımızın mədəni irsini, özünəməxsus adət-ənənələrini, tarixi keçmişini özündə yaşadan bu abidələr sırasında buzxanalar xüsusi yer tutur. Araşdırmalara əsasən vaxtilə Naxçıvan əhalisi buzxanalardan geniş istifadə edib. Burada təbii buz parçaları qədim diyarın kəhriz və bulaqlarından axan sudan hazırlanırdı və yayın qızmar günlərində hər kəsə xoş gəlirdi. Çünki əhali sərin sudan yararlanır, yeyinti məhsullarını, şəxsi azuqələrini xarab olmaqdan, istilərdən qoruyurdu. Buzxanalar elə bu məqsədlə inşa edirilirdi.***

AMEA-nın müxbir üzvü Fərraddin Səfərlinin “Naxçıvan türk-islam mədəniyyəti abidələri” kitabında buzxanalardan da geniş bəhs olunur. Burada göstərilən məlumatlara əsasən buzxanaların zirzəmiləri qış aylarında kəhriz suyu ilə doldurular və buz halına salınarmış. İstilər başlayarkən buzun əriməməsi üçün xüsusi üsullardan istifadə edər, buz salların arasına saman tökərmişlər. Yay aylarında buzdan istifadə etmək üçün bu işlə məşğul olan adamlar ayaqlarına keçə bağlayaraq buzxanaya girər və buzu buradan çıxararaq insanlara verərmişlər. Beləliklə, əhalinin buza olan tələbatı ödənərmiş. Buna görə də orta əsrlərdən üzübəri Şərq aləmində məscid və hamamları, qala və saray kompleksləri ilə məşhur olan Naxçıvan həm də buzxana binaları ilə tanınıb və zəmanəmizədək üç buzxana gəlib çatıb. Hazırda belə buzxanalardan ən böyüyü Naxçıvan şəhərindəki “İmamzadə” kompleksinin yaxınlığında yerləşən “Buzxana” tarix-memarlıq abidəsidir.



*Ordubad rayonundakı Buzxana abidəsi*



*Şərur rayonundakı Cəlilkənddə Buzxana abidəsi*

“Naxçıvan abidələri ensiklopediyası”nda bildirilir ki, bu abidə öz profilinə görə ölkəmizdə qeydə alınan ən böyük tikilidir. XII-XIV əsrlərə aid olan həmin abidə zəngin memarlıq quruluşuna malik olmaqla uzun müddət isti yay günlərində əhalinin buza olan tələbatını ödəyib. Bu tarix-memarlıq abidəsi 2013-cü ildə bərpa işlərindən sonra yenidən istifadəyə verilib. Naxçıvan memarlıq məktəbinin inkişaf dövrünün yadigarı olan abidənin uzunluğu 20, eni 9, hündürlüyü isə 9,6 metrdir. Binanın damında 3 metrdən bir qurulan tağlararası boşluq çatma tağbəndlə örtülüb. Buzxananın əsas hissəsi yerin altında yerləşir. Havalandırma sisteminin düzgün qurulması burada uzun müddət buzun saxlanılmasına imkan verib. Abidənin başlıca xüsusiyyəti heç də onun böyük ölçülərə malik olmasında deyil. Yüksək texniki səviyyədə kərpicdən qurulan örtük konstruksiyasının mükəmməl həlli, tikilmə forması, bina örtüyünün uzununa yüngül və dinamik konstruksiya sxemi üzərində yaradılması onun səciyyəvi cəhətlərindəndir. Hazırda ictimai iaşə obyekti kimi fəaliyyət göstərən bina turist və yerli sakinlərin ən çox üz tutduqları ünvanlardan biridir.

Ordubad şəhərindəki “Buzxana” tarix-memarlıq abidəsi regionda ticarət məqsədilə inşa olunan obyektlərdən biri olub. Şəhərin mərkəzində, şəhərin qədim məhəllələrindən olan Kürdətal məhəlləsində yerləşir. Araşdırmalar göstərir ki, memarlıq abidəsi XIV əsrdə tikilib, XVIII əsrdə yenidən bərpa edilib. Binanın ümumi sahəsi 166, zirzəmisinin daxili sahəsi isə 89,4 kvadratmetrdir. Bişmiş kərpic və əhəng məhlulu ilə tikilən binanın divarlarının qalınlığı 80 santimetrdir. Bina daxili girişdə böyük otaqdan, ikimarşlı 36 pillədən və buz saxlanılan zirzəmidən ibarətdir. Tikilinin ümumi hündürlüyü 11,32 metrdir. Otağın tavanı düz səthli olub, zirzəminin tavanı hər biri 2,9 metr məsafədə yerləşdirilməklə iki qonşu tağın arasında çatma tağtavan şəklində həll edilib. Bu halda hörgü cərgələri daşıyıcı tağa perpendikulyar vəziyyətdə düzülüb. Kərpic hörgüyə əsasən tağın zirvəsinə yaxın tağ-tavanın konstruksiyası dəyişilir. Bütün binanın mərkəzi oxu, tağların baş xətti boyunca xırda tavanlarla tamamlanır. Burada 5 günbəz, ümumi zal, giriş və yardımçı otaq mövcuddur. Konstruktiv elementi formaca 4 tağvarı sütundan ibarət olan abidənin üzərinə latun örtük vurulub, buzxana hissəsinə enən pilləkənlər bərpa olunub. Xalqımızın minillik məişət mədəniyyətinin göstəricisi olan abidənin tarixi görkəmi qorunub saxlanılıb, divarlar əhəng-gil qarışığı ilə hörülüb. Buzxananın üzərində onun haqqında ən dəqiq məlumat verə biləcək kitabə qalmayıb. Ona görə də abidənin nə vaxt inşa edilməsi məsələsində müxtəlif fikirlər yaranıb.

“Naxçıvanın türk-islam mədəniyyəti abidələri” kitabından məlum olur ki, müasir Türkiyə alimi Turqay Yazar Ordubadda XVII yüzillikdən etibarən şəhərdəki məhəllə məscidləri və mədrəsə kimi binaların inşa olunması fikrindədir. Ancaq bir qrup tədqiqatçı onun XIV yüzillikdə inşa olunduğunu, XVIII əsrdə bərpa edildiyini yazır.

Muxtar respublikamızda digər Buzxana abidəsi isə Şərur rayonundakı Cəlilkənddə yerləşir. XIX əsrə aid olan kəndin girəcəyində inşa edilən bina dördkünc formadadır və divarlar yuxarıda tağabənzər formada tamamlanır. Buzxananın daxilində isə divarlar boyunca dördkünc formalı səkilər tikilib. Tikinti zamanı nəfis şəkildə yonulmuş qaya parçalarından istifadə olunması abidəyə xüsusi görkəm bəxş etməklə yanaşı, həm də xalqımızın qədim memarlıq ənənələrindən xəbər verir. Yerin altında yerləşən buzxanaya enmək üçün daşdan xüsusi pilləkən düzəldilib. “Naxçıvan abidələri ensiklopediyası”nda göstərilir ki, binanın divarları yüngülcə yonulan boz rəngli qaya parçalarından inşa edilib. İçərisində divarlar boyunca dördkünc formalı şəkillər var. Yay aylarında yerli əhali istilərdən qorunmaq, yeyinti məhsullarını, şəxsi azuqələrini uzun müddət saxlamaq üçün bu binalardan istifadə edib.

Qeyd edək ki, yuxarıda adıçəkilən buzxanaların hər biri ölkə əhəmiyyətli abidələrdir. Alimlərə görə, bu abidələrin tikilişindəki oxşar konstruksiyadan o dövrdə Təbriz və Ərdəbildə inşa olunan bazar komplekslərinin örtülü keçidlərində istifadə edilib.

***Hazırda milli mətbəximizin təbliği üçün istifadə olunan bu tikili muxtar respublikamıza gələn qonaqlara tariximizi və mədəniyyətimizi tanıtmaqda mühüm rol oynayır.***

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

*İnsan övladı dünyaya göz açdığı andan daim irəli getməyə, uğur qazanmağa can atır. Yalnız əzm və cəsarətlə çalışanlara müvəffəqiyyət zirvəsində yer tutmaq nəsib olur. Haqqında söhbət açacağımız gənc həmyaşıdları arasında fərqlənməyi, erkən yaşdan uğur qazanmağı bacarıb.*

*Prezident təqaüdçüləri*

## Uğura gedən yol zəhmətdən keçir



Onun barəsində qısaca məlumat verərək deyim ki, Əliyev Əbdülhüseyn Telman oğlu 2000-ci il noyabrın 22-də Naxçıvan şəhərinin Qaraçuq kəndində zəhmətkeş ailədə dünyaya göz açıb. Atası Telman kişi zəhmətə qatlaşıb, gözünün ağı-qarası iki oğlunu böyüdüb. Həmişə övladlarına deyib ki, bala, siz çalışın oxuyub savadlı, millətinə, Vətəninə layiqli övlad olasınız. Atanın bu sözləri böyük oğlu Əbdülhüseynin yaddaşına daha çox həkk olunub. Beləcə balaca Əbdülhüseyn atasının bu nəsihətindən sonra dərslərə həvəs göstərməyə başlayıb. İllər keçdikcə oxuduğu Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbdə fəallığı ilə müəllimlərinin diqqətini çəkib. Hələ 5-ci sinifdə təhsil alarkən uğur çırağı nur saçmağa başlayıb. Belə ki, o, sınaq imtahanında yüksək bal topladığı üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovla görüşmək şərəfinə nail olub. Muxtar respublika rəhbərinin ona kompüter hədiyyə etməsi isə Əbdülhüseyni oxumağa daha da ruhlandırıb. Nəticədə, yuxarı siniflərdə uğurları xeyli çoxalıb. Riyaziyyat fənninə isə elə balaca yaşlarından böyük həvəsi olub. Təsadüfi deyil ki, o, 10-11-ci siniflərdə oxuyarkən riyaziyyat üzrə keçirilən fənn olimpiadalarında uğurla iştirak edərək 2 dəfə muxtar respublika ikincisi, bir dəfə ölkə üçüncüsü adını qazanıb. Ən böyük nəticəni isə 2017-2018-ci tədris ilində keçirilən qəbul imtahanlarında göstərib. Belə ki, II ixtisas qrupu üzrə keçirilən birinci imtahanda 651 balı qənaətbəxş hesab etməyən Əbdülhüseyn ikinci imtahandan 690 bal toplamaqla təkcə valideyn və müəllimlərinin deyil, muxtar respublikanın fəxrinə çevrilib. O, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İqtisadiyyat fakültəsinə qəbul olub.

Hər il olduğu kimi, bu il də muxtar respublika rəhbəri yüksək bal toplayan tələbələrlə görüş keçirərək onlara qiymətli hədiyyə və pul mükafatı təqdim edib, tələbələrə təhsillərində uğurlar arzulayıb. Əbdülhüseyn Əliyev də məhz həmin mötəbər tədbirdə iştirak edib. Ötən günlərdə daha bir şad xəbər Əliyevlər ailəsinə hədsiz sevinc bəxş edib. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 12 sentyabr tarixli Sərəncamı ilə Əbdülhüseyn Əliyevə Prezident təqaüdü verilib.

Ailəyə bəxş olunan bu böyük sevinci bölüşmək üçün yaşadıqları ünvana üz tutduq. Anası Lətafət xanım bizi qonaqpərvərliklə qarşılayıb çay süfrəsinə dəvət etdi. Dedi ki, Əbdülhüseyn başımızı qohum-əqrəba arasında uca edib. Qohum, qonşu neçə gündür evimizə təbrikə gəlir. Prezident təqaüdünə layiq görüldüyü xəbərini eşidəndən atasının da, mənim də sevincimiz yerə-görə sığmır.

Yaxşı insan sözünün üstünə gələr, – deyiblər. Elə söhbətin bu yerində ailənin başçısı Telman kişi özünü işdən evə yetirdi. Salamlaşıb, hal-əhval tutduqdan sonra dedi ki, yüksək bal toplayıb ali məktəbə qəbul olan uşaqlar barədə söhbət düşəndə düşünərdim ki, kaş bir gün mən də övladımın belə şad xəbərini eşidim. Şükürlər olsun ki, Əbdülhüseyn bu arzumu ürəyimdə qoymadı. Dövlətimizin xeyirxah addımı isə sevincimizi birəbeş artırdı. Ailəmiz adından dövlətimizə minnətdarlıq edirəm.

Artıq ali məktəbdə dərslərə başlayan Əbdülhüseyn Əliyevlə elə burada ikən telefon əlaqəsi saxladıq. Qazandığı uğurun sevincini bizimlə bölüşdü:

– Hələ uşaq yaşlarımda atamın zəhmətə qatlaşdığını görəndə özümə söz vermişdim ki, məktəbdə yaxşı oxuyub ona layiqli övlad olacağam. Qarşıma məqsəd qoyub çalışdım. Nəticəsi də göz qabağındadır. İmtahanda uğur qazanmağımda müəllimlərimin əməyini heç vaxt unutmayacağam. Muxtar respublika rəhbəri ilə tələbələrin görüşündə iştirakım həyatımın ən gözəl anı kimi yaddaşıma həkk olundu. Onun biz tələbələr haqqında söylədiyi dəyərli fikirlər, verdiyi tövsiyələr gələcəkdə atacağım addımlarda böyük stimul olacaq. Ötən günlərdə ölkə başçısının Sərəncamı ilə Prezident təqaüdünə layiq görülməyim isə ailəmizin və mənim ikiqat sevincimə səbəb oldu. Dövlətin dəstəyini üzərində hiss etmək insana, həqiqətən də, böyük ruh yüksəkliyi bəxş edir. Belə xoş əhval-ruhiyyə ilə artıq dərslərə başlamışam. İnanıram ki, bundan sonra da uğurlarım çox olacaq.

Kəndə gəlmişkən məktəbə də üz tutduq. Məktəbin direktoru Ülkər Məmmədova dedi ki, 2015-ci ildə təhsil ocağı üçün müasir binanın istifadəyə verilməsindən sonra uğurlarımız daha da çoxalır. Bu il məzunlarımızdan 18-i ölkənin qabaqcıl ali təhsil ocaqlarının tələbəsi adını qazanıb. Əbdülhüseyn isə ən yüksək nəticə qazanmaqla təhsil müəssisəsinin adını daha yüksəklərə qaldırıb. Məktəbin riyaziyyat müəllimi Yaşar Vəliyev də bir müəllim kimi şagirdi ilə fəxarət duyduğunu dedi:

– 40 ildən artıqdır ki, bu şərəfli və məsuliyyətli peşədə çalışıram. Ötən illər ərzində uğur qazanan, ali məktəblərə qəbul olan şagirdlərim çox olub. Əbdülhüseynin də yüksək bal topladığını eşidəndə qürur hiss keçirdim. Onun riyaziyyata hədsiz marağı hələ 9-cu sinifdən məndə bu uşağın gələcəyinin parlaq olacağı fikrini yaratmışdı. Bəzi şagirdlər var ki, hər hansı fənnə marağı olsa da, qarşısına məqsəd qoymur. Nəticədə, uğur da qazana bilmir. Lakin Əbdülhüseyndə bu məqsədi hər zaman hiss etmişəm. O təkcə dərslərini yaxşı oxumaqla deyil, sinif yoldaşları arasında göstərdiyi davranışı ilə də məni heyran qoyub. Düşünürəm ki, onun bundan sonra da uğurları çox olacaq.

Bəli, muxtar respublikamızda təhsil sahəsində aparılan uğurlu siyasət nəticəsində hər il Əbdülhüseyn Əliyev kimi yüzlərlə gəncin yoluna şəfəq saçılır. Əminliklə demək olar ki, gələcək illərdə uğur qazanan məzunlarımızın sayı daha da çox olacaq.

✍ **Nail ƏSGƏROV**

## Növbəti interaktiv dərs 200-dən artıq məktəbdə izlənilib



***AMEA Naxçıvan Bölməsi ilə Naxçıvan Muxtar Respublikasının 200-dən artıq ümumtəhsil məktəbi arasında yaradılan interaktiv dərsdə görkəmli Azərbaycan alimi, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Həsən Abdullayevin həyatı haqqında şagirdlərə ətraflı məlumat verilib.***

“Akademik Həsən Abdullayev: görkəmli fizik” mövzusunda keçilən dərsdə bölmənin Təbii Ehtiyatlar İnstitutunun Fiziki tədqiqatlar laboratoriyasının rəhbəri, fizika üzrə fəlsəfə doktoru, dosent Məmməd Hüseynəliyev akademikin həyat və elmi fəaliyyəti haqqında şagirdlərə geniş məlumat verib. Bildirib ki, bu il görkəmli fizik, böyük elm təşkilatçısı, akademik Həsən Məmmədbağır oğlu Abdullayevin anadan olmasının 100 illiyi tamam olur.

Azərbaycanda fizika məktəbinin formalaşmasında, sanballı nəticələrə nail olunmasında alimin əməyindən bəhs edən Məmməd Hüseynəliyev akademikin müəllifi olduğu və tələbələri ilə birlikdə yazdığı selen düzləndiricilərinə aid monoqrafiyaların dünya elmi nəşrləri sırasında öz fundamentallığı ilə seçildiyini deyib. Qeyd edib ki, akademik Həsən Abdullayevin Azərbaycanda bərk cisimlər fizikasının inkişafında, yarımkeçiricilər elektronikasının və yüksək texnologiyaların müasir həyata tətbiqində əvəzsiz rolu olub. Alim 15 monoqrafiyanın, 250-dən çox ixtiranın, onlarla dərsliyin, 500-dən çox elmi məqalənin müəllifidir.

Açıq dərsdə qeyd olunub ki, Həsən Abdullayevin yaratdığı elmi irs bu gün də öyrənilir.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

*Sentyabrın 20-də Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, dramaturq Əli Əmirlinin “Əli və Nino” tamaşası ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı 136-cı teatr mövsümünü açıb.*

## 136-cı teatr mövsümünün açılışı olub



Yeni teatr mövsümünün açılışı münasibətilə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova bildirib ki, yeni mövsümdə Naxçıvan teatrı öz ənənələrini davam etdirərək gözəl səhnə əsərləri ilə tamaşaçıların görüşünə gəlməyi nəzərdə tutur.

Vurğulanıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında teatrların fəaliyyətinə hərtərəfli qayğı göstərilir. Son illər bu diyarda teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, teatr binaları yenidən qurulub və ya əsaslı təmir olunaraq istifadəyə verilib. Bu gün Naxçıvanda fəaliyyət göstərən teatrlar tamaşaçıların mənəvi və estetik zövqünün formalaşmasında, asudə vaxtlarının mənalı təşkilində əhəmiyyətli rol oynayır.

Nazir deyib ki, müstəqillik illərində Naxçıvan Dövlət Musiqili Dram Teatrının yaradıcılıq axtarışları, qastrol səfərləri genişlənib, kollektiv tariximizin və milli dəyərlərimizin daşıyıcısına çevrilib. Üç əsrin şahidi olan Naxçıvan teatrında səhnəyə qoyulan tamaşaların müasirlik kontekstində təqdimatı tamaşaçı zövqünün formalaşmasına xidmət edən amillərdəndir.

Diqqətə çatdırılıb ki, 2012-ci il fevral ayının 3-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi muxtar respublikanın mədəni həyatında əlamətdar hadisə olmaqla bərabər, həm də bu sahəyə göstərilən diqqət və qayğının ifadəsidir.

Sonra “Əli və Nino” tamaşası göstərilib.

Əsər 1914-1920-ci illərdə Bakıda baş verən hadisələri tam dolğunluğu ilə özündə əks etdirir. Avropa və Asiyanın arasında yerləşən bu şəhərdə mədəniyyətlərin, sivilizasiyaların kəsişməsi, Azərbaycan xalqının tolerantlığı öz əksini tapıb.

Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyevin quruluş verdiyi tamaşada teatrın tanınmış artistləri ilə yanaşı, gənc aktyorları da maraqlı obrazlar yaradırlar.

Tamaşanın quruluşçu rəssamı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundov dövrün koloritini canlandırmağa çalışıb. Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovun musiqi tərtibatı da hadisələrlə səsləşir. Tamaşada görkəmli bəstəkarlarımız Qara Qarayevin, Fikrət Əmirovun, Soltan Hacıbəyovun və başqalarının musiqisi ilə yanaşı, gürcü, tatar melodiyalarından da istifadə edilib.

**Əli RZAYEV**

*Milli mətbəximiz*

## Qışa hazırlıq ənənələri

***Mətbəximizin mövsümi yeməkləri var. Bu sırada ənənəvi qış yeməkləri də xüsusi yer tutur. Qış mövsümünə də artıq bir neçə ay qalır. Bütün ailələrdə mövsümə hazırlıq işləri görülür. Ordubad şəhərində yaşayan 75 yaşlı Səkinə Əzizova deyir ki, qışa hazırlıq xüsusi zəhmət tələb edir. Belə ki, iyun ayından başlayaraq yaxın qohum-əqrəba ilə birlikdə dağlara gedir və oradan çaşır, sobu, baldırğan, cacıq, qazayağı, əvəlik, ələyəz toplayırıq. Bu bitkilərin bəzisinin şorabasını qoyur, bəzisini isə qurudub qışa saxlayırıq. Qışda isə həmin bitkilərdən yeməklər hazırlayırıq.***



Səkinə nənə qeyd edir ki, yay mövsümünə uyğun fərqli çeşidli meyvələr qurudulur və qışda həmin meyvə qurularından həm çərəz, həm də qənnadı kimi istifadə edilir. Buna, eyni zamanda “qax” da deyirlər. Meyvələrin qurudulması iki üsulla həyata keçirilir: birincisi, Günəş altında, ikincisi isə təndirdə, gillədə qurutmaq. Bu üsulların ən sadəsi birincisidir. İnsanlara elə gəlir ki, meyvə quruduqca onun vitamininin



dəyəri azalır. Əksinə, bu dəyər xeyli artır. Əriyin içərisindəki çəyirdəyi (dənəni) çıxarıb qurudurluq. Ərik qurudulan zaman çəyən biçib əriyin altına səririk ki, yağan yağış çəyənin altından axıb getsin, onun dadını aparmasın. Ərik qurudulduqdan sonra uzun müddət saxlanılması üçün qaynadılmış duzlu suya salınıb çıxarılır. Qurudulmuş əriyin rəngi sarı olsun deyə həmin şor suya üzüm yarpağı da atırıq. Hətta armud, şaftalı, əncir içləri təmizlənir və cəviz, şəkər tozu, ədviyyatlar qarışdırılaraq, həmin meyvələrin içərisinə doldurulur, ipə düzülərək qurudulur.

Səkinə nənə onu da bildirir ki, bağlarından olan meyvələrdən yığaraq, çox çeşiddə kompotlar, mürəbbələr, cemlər hazırlayırlar.

Nənə deyir ki, üzüm və tutdan bəkməz, qızılgül ləçəklərini saplağından ayırıb təmizləyərək mürəbbə edirik ki, bunlar da soyuqdəyməyə çox faydalıdır.

Qış üçün lobya dənələri qurudub aşlara, sıyıq əriştələrə əlavə edirik. Əriştə yeməyinin adını çəkmişkən, demək istəyirəm ki, qız-gəlinlər yığılaraq hər gün bir ailənin qış tədarükü üçün əriştə kəsir və qurudurlar.

Səkinə nənə onu da diqqətimizə çatdırır ki, noyabr ayından etibarən ət qovurmaları hazırlayır, qışda fərqli çeşidli qovurma yeməkləri bişiririk. Qovurma, əriştə yeməklərinin yanında şorabalar olmazsa, o, tam yemək sayılmaz. Belə ki, yaz aylarında hazırladığımız çöl qarpızı, gavalı, baldırğan, çaşır və başqa şorabalardan istifadə edirik. Eyni zamanda üzüm yarpağından şorabalar qoyub süfrələrimizin bəzəyi olan yarpaq dolması bükub bişiririk.

Mövsümündə daha dadlı və vitaminli olan göyərtilərdən istifadə edərək, butulkalarda dovğa hazırlayırıq.

Buğdanı yuyur, daha sonra onu qurudur və dəstərdə çəkib yarma edirik. Qışda isə yarmadan fərqli yeməklər hazırlayırıq.

Səkinə nənə bildirdi ki, qış süfrəsinin zəngin olması üçün soyuq havalarda tapa bilməyəcəyimiz ərzaqları yaz-yay aylarından alıb hazırlıqlara başlamalıyıq. Sağlamlığın yolu məhz təbii qidalardan keçir. Buna görə də hər bir insan qışa hazırlığa ciddi yanaşmalıdır.

**Telli MUSTAFAYEVA**

## Atletika digər idman növlərinin hərəkətverici qüvvəsidir

*İdman insanların həyatında mühüm yer tutur. Gün ərzində yüksək əhval-ruhiyyədə və enerjili olmaq üçün mütləq şəkildə idmanla məşğul olmaq lazımdır. Mütəxəssislər maraqlı bir məqama da toxunaraq qeyd edirlər ki, istənilən yaş həddində idman insan orqanizminə yalnız müsbət təsir göstərir. Düzdür, bəzi idman növləri var ki, onlar müəyyən fəsadlar törədə, həmin idman növünə olan marağı azalda bilər. Lakin yüngül atletika ilə məşğul olanlar bu barədə heç vaxt şikayətçi olmayıblar. Əlbəttə, bunun da səbəbləri var ki, yazıda bunları bir qədər açmağa çalışacağıq.*

Zaman keçdikcə insan orqanizmi tələb olunan müəyyən təbii və süni təsirlərə uyğunlaşır. İnsan orqanizminə mənfi mənada təsir edən amillərdən biri də xəstəliklərdir. Bədənin möhkəmləndirilməsi isə bu xəstəlikləri müalicə etmir, sadəcə, onların qarşısını alır. Yəni bir növ profilaktik rol oynayır. Bədəni möhkəmləndirərkən immunitet sistemi də məşq etmiş olur. Atletika idman növlərində bu proses daha çox sezilir. Ümumiyyətlə, “atletika” qüvvə, çeviklik, cəldlik tələb edən hərəkətlərin məcmusudur. Bu, bir idman növü olmaqla yanaşı, həm də digər fiziki hazırlıq tələb edən növlərin əsasını təşkil edir. Məhz buna görə Yunanıstanda böyük fiziki qüvvəyə malik insanları – idman yarışlarının iştirakçılarını “atlet” adlandırırdılar.

Yüngül atletikada daha çox texniki hərəkətlərə fikir verilir: hər bir hərəkəti səbir və təmkinlə dəqiq yerinə yetirmək vacib şərtdir. Araşdırmalar göstərir ki, yalnız bir idman növü ilə məşğul olarkən bədən birtərəfli inkişaf edir. Müxtəlif növləri də bura əlavə etsək, o zaman uğurlu bir bünövrənin əsasını qoymaq olar.





Atletikadakı ilk addımlar sağlamlığın möhkəmləndirilməsinə, ümumi fiziki inkişafa xidmət edir. Bəs bu növlə məşğul olanların orqanizminə müsbət yöndə təsir edən amillər hansılardır? İlk olaraq bu idman növü ilə məşğul olanların əhvalı yüksəlir, narahatlığı və gərginliyi aradan qalxır. Xroniki xəstəliklərin qarşısı alınır, ürək və ağciyərin funksiyası yaxşılaşır, orqanizm oksigenlə tam təmin olunur, damarlarda qan dövranı sürətlənir, bütün əzələ qrupları formaya düşür. Ümumiyyətlə, yüngül atletika formada qalmaq üçün ən yaxşı və ideal vasitədir. Yüngül atletikanın digər idman növlərindən fərqi insanların özünü bu sahədə sübut etməsi üçün daha çox zamanın tələb olunmasıdır. Qaçmağı bacaran hər kəs atlet ola bilməz. Onu da deyək ki, yüngül atletikaya başlamazdan öncə insan mütləq şəkildə həkim nəzarətindən keçməli, bu növə sürətli başlanğıc etməməlidir. Məşqlərə tədricən yavaş başlayıb daha sonra fiziki güc tələb edən hərəkətləri müəyyən bir həddə qədər artırmalıdır.

Müasir idman növləri müəyyən proseslərdən keçsə də, yüngül atletika olduğu kimi qalıb. Yəni hazırda idman yerişi, müxtəlif məsafələrə maneələri dəf etməklə qaçmaq, idman alətləri atmaq, uzunluğa və hündürlüyə tullanmaq, çoxnövçülük kimi növlərdə yarışlar keçirilir. Müasir dövrümüzdə idman mütəxəssisləri yüngül atletika terminini bir şərt kimi qəbul ediblər. Başqa sözlə ifadə etsək, bu növ “idmanın kraliçası”dır və digər növlərdən fərqi onun dövri idman növlərinə aid olmasıdır. Bu növdə yüksək səviyyəli idmançı hazırlamaq o qədər də asan deyil. Çünki burada rəqibə yox, zamana, məsafəyə qalib gəlməlisən. Digər tərəfdən, istənilən fiziki idman növlərinin əsasında atletika dayanır. Araşdırmalar sübut edir ki, idmana maraq göstərənlərin, demək olar ki, hamısı qaçışla məşğul olur. Qaçış insanın sağlamlığına böyük təsir göstərir. O, bütün orqanizmin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Atletikanın daha bir xüsusiyyəti digər növlərdə özünü büruzə verməsidir. Yəni futbol və ya voleybol oynayarkən idmançı atletik gücü hesabına digər komanda yoldaşlarından xeyli fərqlənə bilir. Fiziki keyfiyyətlərlə yanaşı, bu, həmin idmançıda iradə, qətiyyət yaradır, oyun zamanı məsuliyyət hissini artırır. Yüngül atletikada yüksək ustalığa nail olmaq heç də asan deyil.

Yüngül atletika muxtar respublikamızda müəyyən ənənəyə malik olan bir növdür. Hazırda Naxçıvanda Yüngül Atletika Federasiyası fəaliyyət göstərir ki, uşaq, yeniyetmə və gənclərin fiziki sağlamlığının qorunması, onların kütləvi şəkildə yarışlara cəlb olunması üçün müxtəlif tədbirlər təşkil edilir. Diyarımızda yüngül atletikanın geniş yayılmış növü qaçışdır və federasiyanın Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə birgə təşkil etdiyi 100, 200, 400, 800 və 1500 metrlik məsafəyə qaçış və ya kross yarışlarında yüzlərlə idmançı iştirak edir.

Adətən, mütəxəssislər idman yetkinliyini yoxlamaq üçün yarışların ən yaxşı imtahan olduğunu vurğulayırlar. Çünki yarışlara düşünülmüş qaydada hazırlaşmaq əsas şərtdir. Bunun nəticəsidir ki, bu gün muxtar respublikanı təmsil edən atletlər ölkə birinciliklərində, eləcə də beynəlxalq turnirlərdə uğurlu nəticələr əldə edirlər. Son iki ildə isə idmançılarımız yüngül və ağır atletika yarışlarında əhəmiyyətli nailiyyətlər qazanıblar. Xüsusilə nazirliyin Şərur rayonundakı ağır atletika bölməsinin idmançısı Tərmenxan Babayevin hazırda öz çəki dərəcəsində Avropanın, eləcə də dünyanın ən öndə gedən idmançıları siyahısında olması atletikanın Naxçıvanda inkişafından xəbər verir.

**✍ Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Rüstəmov Anar Ramiz oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 683